# XƏLİL İBRAHİM - HÖKUMƏTİN İSTEFASI

Keçən həftənin mühüm hadisələrinin başlıcası hökumətimizin istefa verərək, iş başından düşməsidir. Əvət! Hökumət istefa verdi. Likən öylə bir zamanda ki, şimaldan və cənubdan, daxildən, həm xaricdən məmləkət bilavasitə təhlükə altındadır. Öylə bir zamanda ki, iş başından düşmüş hökumət birinci proqram nitqində göstərmiş olduğu fırtına hələ istənilən qədər yatmamışdır, öylə bir zamanda ki, coşmuş, qabarmış dalğalar içindəki "taxta parçamız" hələ sahili-nicata çıxmamış və üfüq hala də duman içindədir.

Xülasə, öylə bir zamanda ki, məmləkətimiz həmişə gendən ziyadə imdi birləşmək, bərabər çalışmaq, sahili-istiqlala çəkmək istədiyimiz Vətən qayığında hamılıqca mahir bir gəmiçi kəsilməgə möhtacdır.

İştə, böylə bir zamanda Fətəli Xan həzrətləri yoruldular, əsəbləri zəifləşdi, səhhətləri dövlətin ağır yükünü daşımağa imkan vermədi. Nəhayət, istirahətə çəkilməgə məcbur oldular.

Həm yorulmaya bilməzdilər. Azərbaycanın dörd aydan bəri, daha doğrusu Cümhuriyyət elanından bəri keçirməkdə olduğu halı hər kəs ədalət və inkişaf nəzərilə tədqiq etsə, digər tərəfdən məmləkətin əhvali-ümumiyyə və övzayı-xariciyyə və daxiliyyəsini nəzərə alsa, bu vəziyyətləri bitərəf və biqərəz mülahizə etsə, boynuna alar ki, Azərbaycan yükünü daşımaq üçün bəşər qüvvəsinin mafövqündə bir qüvvə lazım idi. Hal və övza bunca böyük bir qüvvə tələb etdiyi halda hökumət o vəqt yorulmazdı ki, axtardığı yerlərdə mətin müəyyənlər görə idi, dərdlərinə şərik tapa idi.

Fəqət bunlar varmı idi?

Qətiyyən yox! Hələ bu azdır! Bən cəsarətlə deyəriz ki, hökumətimiz məmləkət yükündən, vəzifə ağırlığından və mübarizədən yorulmadı, bəlkə camaatımız onu yordu. Çünki məmurların vəzifələrinə necə baxdıqları tacirlərin Vətənin kökünü necə qazdıqları, xülasə, Vətən və millət mövcudiyyəti hamıdan fədakarlıq tələb etdiyi bir zamanda hamının ümumiyyətlə və hər kəsin ayrı-ayrı kəndi mənfəətini hər şeydən yüksək tutduğunu nəzərə alalım da, etiraf edəlim ki, özümüzü yorduq, özümüzü xəstə etdik.

Hələ bunlardan, həpsinin üstünə bunu da əlavə edəlim ki, bu vəqtədək ittihad rəyi o yanda qalsın. Bunu biz qeyri-mümkün rədd ediyoruz.

İttifaq degil, bari qüvvəli bir mərkəz belə əmələ gətirilməmişdir ki, hökumət ona istinad etsin.

Hər tərəfdən qeyri-müsaid vəziyyətdə bulunan və eyni zamanda istinadgah təşkil edəcək bir mərkəz dəxi görməyən bir hökumət yorulmazmı? Əsəbiləşməzmi? Xəstələnməzmi?

İştə, yuxarıda zikr etdiyimiz əməllərdir ki, Xan Xoyski kabinəsini yordu, istirahətə çəkilməgə vadar etdi.

İstefa vermiş hökumətin fəaliyyətini təfsilatı ilə nəzərdən keçirmək mümkün olmadığından bu dəfə biz ancaq məmurlar haqqında ticarət və sənaye və əsgərlik məsələlərində, ərzaq işlərində, dövlətlər və millətlər ilə münasibətimizi yaxşılaşdırmaq barəsində və sairədə görmüş və görməkdə olduğu tədbirləri nəzərə alaraq deyə biləriz ki, hökumət məmləkətin mənafeyini və eyni zamanda heyyətini müdafiə və mühafizə uğrunda doğru bir yol tutmuşdu; bəzi nəticələr də əldə etmişdi. Fəqət təəssüf edəriz ki, bütün proqramını təmamilə icra etmədi. Xan Xoyski həzrətləri xəstələnərək iş başından çəkildilər.

Bu, ya o hökumətin çalışması, çalışa bilməsi üçün lazım olan ümum amillər mövcud olursa, nə eybi var, hökumətin biri yorular, zümam hökuməti digər bir zat əlinə alar. Böylə olan surətdə Kabinənin dəyişməsi məmləkət həyatına heç vəqt sui-təsir edəməz.

Fəqət mütəəssüfanə Azərbaycanda bu amillər təmamilə mövcud degildir.

Ona görədir ki, zənni-acizanəmizcə Azərbaycan Məclisi-Məbusanı bugün yeni hökumət təşkilinə şüru edərkən eyni zamanda bu amillərə də ciddən diqqət verərək təşəbbüsatda bulunmalıdır.

Amillərdən birincisi və ən mühümü budur ki, Parlamanımız yeni Kabinə təşkilində ümumi bir lisan taparaq hökumət üçün el nümayəndələrindən mütəşəkkil gücü bir istinadgah hasil etməlidir, əks surətdə sabit bir hökumət vücudu qeyri-mümkündür.

Kabinənin tez-tez dəyişməsinin isə fəaliyyəti-məmləkət həyatına nə qədər sui-təsir etdiyi bir həqiqətdir ki, isbatına hacət yoxdur.

Binaən ileyh Məclisi-Məbusanımız bugün hökumətsizlik dərdi ilə bərabər Mərkəzsizlik qeydinə də qalmalıdır.

*"Bəsirət" qəzeti, 1919, №212, s. 1-2.*

**Ərəb əlifbasından transliterasiya edən:**



***Tahirə HƏSƏNZADƏ, tarix elmləri doktoru, Əlyazmalar İnstitutu, şöbə müdiri***